Azərbaycan Respublikası Təhsil Nazirliyinin 02.09.2014-cü il tarixli 950 nömrəli əmri ilə dövlət ümumi təhsil müəssisələrində açılmış eksperimental pilot siniflərdə təhsil prosesinin təşkili və tənzimlənməsini təmin etmək məqsədilə "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 8.10-1-ci və 13.5-ci bəndlərini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1.Dövlət ümumi təhsil müəssisələrində açılmış eksperimental pilot siniflər üçün 2014-2015-ci dərs ilinə aid aşağıdakı tədris planları və tədris planlarına dair "Qeydlər" təsdiq edilsin:

1.1. Eksperimental pilot I-VII siniflər üçün tədris planı (1, 2 nömrəli əlavələr);

1.2. Eksperimental pilot VIII-IX siniflər üçün tədris planı (3, 4 nömrəli əlavələr);

1.3. Eksperimental pilot X-XI siniflər üçün tədris planı (5 nömrəli əlavə);

1.4. Təlim beynəlxalq İB kurikulumu üzrə aparılan eksperimental pilot I siniflər üçün tədris planı (6 nömrəli əlavə);

1.5. Təlim beynəlxalq İB kurikulumu üzrə aparılan eksperimental pilot X-XI siniflər üçün tədris planı (7 nömrəli əlavə);

1.6. Tədris planlarına dair "Qeydlər" (8 nömrəli əlavə).

2. Məktəbəqədər və ümumi təhsil şöbəsi (A.Əhmədov) tədris planlarının ümumi təhsil müəssisələrinə çatdırılmasını təmin etsin.

3. İnformasiya şöbəsi (E.Əliyev) bu əmrin əlavələrlə birlikdə Nazirliyin internet saytında yerləşdirilməsini təmin etsin.

4. Əmrin icrasına nəzarət nazir müavini C.Bayramova həvalə olunsun.

***Mikayıl Cabbarov,***

***Azərbaycan Respublikasının təhsil naziri***

***23 oktyabr 2014-cü il***

***№ 1087***

---

2014-2015-ci dərs ilinə aid tədris planları və tədris planlarına dair "Qeydlər"